BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2010

## POLİTOLOGİYA

# İRAN DÜNYA SİYASƏTİNDƏ

**R.İ.BƏDƏLOVA**
***Bakı Dövlət Universiteti***
***rahile_bedelova@mail.ru***

*Bu gün qloballaşan dünyada bütün insan həyatı üçün təhlükəli olan silahların qadağan olunduğu bir vaxtda İranın belə bir addıma əl atması dünya ictimaiyyətinin narazılığına səbəb olmaya bilməz. Bu silahların tətbiq olunmasının tarixdə hansı böyük fəlakətlərə gətirib çıxardığı da məlumdur. Bunun nəticəsində milyonlarla insan həlak olmuş, həmin ərazilərdə müxtəlif xəstəliklər yaranmış, bu torpaqlar yararsız hala düşmüşdür. Belə halın təkrar olunmayacağına da heç kim zəmanət verə bilməz. İranın son zamanlar apardığı hərbi siyasət isə bunun çox tez bir zamanda da təkrar olunacağına bir işarə kimi göstərilə bilər. İranın hər an bu silahlardan istifadəsi nəzərə alınmalıdır. Buna görə də, tez bir zamanda, İranın yeritdiyi qeyri-demokratik və hərbiləşdirmə siyasətinə qarşı müəyyən sanksiyaların tətbiq olunması vacibdir. İranın yeritdiyi siyasətdən danışarkən, onun yerləşdiyi regionu da nəzərə almaq vacibdir.*

II dünya müharibəsi illəri və sonrakı bir neçə illər ərzində İrandakı proseslər ölkənin XX əsr tarixinin ən dramatik dövrlərindən biridir. Birincisi, İran cəmiyyətində sosial-siyasi fəallıq birdən və qəti şəkildə yüksəlmişdi; ikincisi, ölkənin daxili və xarici siyasətinin başlıca problemləri ətrafında mübarizə kəskinləşmişdi; üçüncüsü, İranın gələcək ictimai və dövlət quruluşunun xarakteri haqqında qızğın müzakirələr siyasi həyata xüsusi bir gərginlik gətirmişdi; dördüncüsü, ölkənin əlverişli, geopolitik mövqeyindən yararlanmaq və İranda öz maraqlarını təmin etmək uğrunda ənənəvi olaraq burada nüfuzları güclü olan Böyük Britaniya və Sovet İttifaqı ilə yanaşı Amerika Birləşmiş Ştatları da mübarizəyə qatılmışdı. Əslində, bu proseslər 1941-ci ilin avqustunda Sovet İttifaqı və Böyük Britaniyanın, 1942-ci ilin sonlarından ABŞ hərbi qüvvələrinin İrana girməsi ilə başlamışdı. Həmin dövrdə Rza şah Pəhləvi taxtdan salınmış, onun yerinə oğlu Məhəmməd Rza Pəhləvi gətirilmiş, bununla da uzun illər İranda mövcud olmuş hərbi diktatura rejiminə son qoyulmuşdu. Bu da öz növbəsində seçkili orqanların, xüsusilə, parlamentin- məclisin rolunun güclənməsinə gətirib çıxarmışdı.

SSRİ İran Kommunist Partiyasının varisi Xalq Partiyasını (Tudə) və onun ətrafında birləşən qüvvələri dəstəkləyirdi. Bu partiya ölkədə demokratik dəyişikliklər aparılması, xalqın həyat və iş şəraitinin yaxşılaşdırılması, İranın milli suverenliyinin möhkəmləndirilməsi və xarici müdaxilələrin ləğv edilməsi uğrunda mübarizəni öz başlıca proqramı elan etmişdi. Kifayət qədər cəlbedici olan bu şüarlar az bir zamanda Tudə partiyasının şöhrətini artırdı və onun üzvlərinin sayını yüz min nəfərə çatdırdı.

1944-cü ildə keçirilən parlament seçkilərində bu partiyanın bir neçə üzvü parlamentə seçildi. Hətta 1946-cı ildə Əhməd Qəvvamın (Qəvvam əs-Səltənə) təşkil etdiyi hökumətin tərkibində 3 tudəçi də olmuşdur.

Əhməd Qəvvam (1877-1955) ABŞ-la münasibətlərin möhkəmləndirilməsinin tərəfdarı idi və ölkədə iqtisadi, siyasi dəyişikliklər aparılmasını, şah hakimiyyətinin daha çox məhdudlaşdırılmasını istəyirdi. 1946-cı ilin əvvəllərində Əhməd Qəvvam baş nazir olduqdan sonra həqiqətən yuxarıda sadalanan prinsiplərin həyata keçirilməsində maraqlı olduğunu sübut etdi, dövlət aparatında çalışan ingilispərəst siyasi kurs tərəfdarlarını vəzifələrindən uzaqlaşdırdı, əmək haqqında qanunun qəbul edilməsinə nail oldu, Azərbaycan türklərinin və kürdlərin hüquqlarının genişləndirilməsinə söz verdi, İngiltərə-İran Neft Kompaniyasının (İİNK) istismar etdiyi neft mədənləri üzərində İranın hüquqlarının bərpa edilməsi məsələsini hökumətin gündəliyinə gətirdi. Ölkədə bu hökumətin əlehdarları da çox idi. Bunlar, əsasən, saraya yaxınlığı ilə tanınan mühafizəkar ovqatlı siyasi xadimlər idilər. Məhz bu ingilispərəst qüvvələrin kəskin reaksiyası ilə qarşılaşan Qəvvam İrandakı imtiyazlı sosial qrupların təmsilçilərini bütünlükdə öz ətrafında birləşdirmək niyyətinə nail ola bilmədi. Liberal-millətçi qüvvələr daha müstəqil xətt və mövqe nümayiş etdirdilər. Onlar "İran" partiyasında birləşmişdilər və ölkənin modernləşdirilməsi üçün radikal sosial-iqtisadi və siyasi islahatlar keçirilməsini istəyirdilər. Liberal-millətçilərin sıralarında K.Səcabi, M.Bazarqan və s. kimi liderlər var idi. Klerikal siyasətçilərdən və dini-siyasi qruplardan ibarət qüvvələr də İranda möhkəmlənməyə başlayırdılar. Bu qüvvələr İranda xarici dövlətlərin nüfuzunun artmasının əleyhinə idilər. Klerikal müxalifətin liderlərindən olan Kaşani — demək lazımdır ki, o, antiingilis çıxışlarına görə ölkədə çox məşhur idi — "Mocahidan-e islam" ("İslam mücahidləri") partiyasını yaratmışdı. Partiya əsas diqqətini ona yönəltmişdi ki, İran cəmiyyətində müsəlman ruhanilərinin mövqeyi gücləndirilsin və bu sahədə geniş təbliğat kampaniyası aparılırdı. 1945-ci ilin yazından başlayaraq İranda siyasi vəziyyət kəskin dəyişdi. Belə ki, bu Cənubi Azərbaycan türklərinin və Şimali Kürdüstan əhalisinin öz milli hüquqları uğrunda güclü bir hərəkata qoşulması ilə bağlı idi. Cənubi Azərbaycanda yerli kommunistlərin və digər sol görüşlü millətçi qüvvələrin təşəbbüsü ilə S.C.Pişəvərinin başçılığı altında Azərbaycan Demokrat Partiyası (ADP) yaradıldı və bu partiya Cənubi Azərbaycan türkünün milli haqlarının təmin olunması və qorunması işini öz fəaliyyət proqramı elan etdi. Elə buna görə də, Demokrat Partiyası Cənubi Azərbaycan xalqının bütün təbəqələri tərəfindən dəstəklənirdi. Az keçmədi ki, ADP öz sıralarında 70 min üzvü birləşdirdi, milli-demokratik bir partiya kimi tanındı. Onun İran dövləti daxilində Cənubi Azərbaycana mədəni və yerli özünüidarə sahələrində muxtariyyət verilməsi tələblərinə bütün xalq qoşulmuşdu. 1945-ci ilin 12 dekabrında Azərbaycan Muxtar Cümhuriyyətinin yaradıldığı elan edildi. İran hökuməti Təbrizdə baş verən bu hadisələrin qarşısını almaq üçün ora ordu hissələri göndərmək istədikdə sovet hərbi komandanlığı buna mane oldu. 1945-ci ilin axırlarında Azərbaycan Milli Məclisinə seçkilər keçirildi, bunun ardınca isə Azərbaycanın milli hökuməti təşkil edildi. Hökumətin proqramında Azərbaycan muxtariyyətinin möhkəmləndirilməsi, ölkədə bir sıra demokratik dəyişikliklərin həyata keçirilməsi nəzərdə tutulurdu. Azərbaycan hökuməti eyni zamanda bildirdi ki, o, mərkəzi hökuməti tanıyır və Azərbaycan muxtariyyətinə zidd olmayan bütün qərar və göstərişləri yerinə yetirəcəkdir. Az vaxtda Milli hökumət böyük işlər görə bildi. Aqrar islahat haqqında dekret verildi. Dövlət mülkiyyətində olan və ya bəzi torpaq sahiblərindən müsadirə edilmiş 250 min

ha torpaq sahəsi pulsuz olaraq 210 min kəndli ailəsi arasında bölüşdürüldü. Torpaq və su üzərində xüsusi mülkiyyətə toxunulmurdu. 8 saatlıq iş günü, sosial sığorta, tiryəkdən istifadənin və fahişəliyin qadağan olunması haqqında dekretlər verildi. Milli hökumətin gördüyü ən mühüm tədbirlər içərisində xalq özünümüdafiə dəstələrinin yaradılması, türk dilinə rəsmi status verilməsi, bu dildə məktəblər açılması, savadsızlığın ləğvi kurslarının təşkili, xüsusilə, Təbrizdə Azərbaycan Dövlət Universitetinin yaradılması çox ciddi tarixi hadisələr idi. Mədəniyyətin, səhiyyənin, sosial təminatın və şəhər infrastukturun inkişafına çalışılırdı. Teatrlar, pulsuz xəstəxanalar və ana dilində radio fəaliyyət göstərirdi (1, 98).

Qəvvam əs-Səltənin atdığı addımlar millətçi-istiqlalçı və digər siyasi qüvvələri zərərləşdirmək məqsədi güdürdü. Bu məqsədlə 1946-cı ilin iyununda İran Demokrat Partiyasını yaratdı və bütün tərəfdarlarını ora topladı. Bundan sonra Böyük Britaniya ölkənin cənubunda – Xuzistanda öz imkanlarını səfərbər etdi, burada Xuzistan Qəbilələrinin İttifaqı adlı təşkilat yaradıldı. Bu təşkilat Xuzistanın İrandan ayrılması tələbini irəli sürürdü və belə bir bəhanə gətirirdi ki, Azərbaycanda və Kürdüstanda yaranmış hakimiyyətlər İranın parçalanması məqsədi güdür. İran dövləti bu "seperatçılıq" hərəkətlərinə son qoymur və biz də etiraz olaraq həmin addımı atmaq məcburiyyətində qalmışıq.Bu məqsədlə Böyük Britaniya hərbi gəmilərini Abadan və Xürrəmşəhr limanlarına gətirdi. Bəsrə rayonunda İran sərhədlərinə yaxın əraziyə bir neçə ingilis diviziyası yerləşdirildi. Bunu bəhanə edərək, neft mədənlərinin işçiləri kütləvi nümayişlərə başladı. Bu aksiyanın arxasında isə tudəçilər dayanırdılar. 1949-cu ilin 16 iyulunda Qəvvam hökuməti neftçilərin bu nümayişlərini qeyri-qanuni saydı. Xuzistanda hərbi vəziyyət elan olundu və sakitlik yarandı. Bu Qəvvam əs-Səltənənin ilk uğuru idi. 1949-cu ilin sentyabrda Qəvvam əs-Səltənəni dəstəkləyən Cənubi İran qəbilələri başçılarının hərbi qüvvələri hərəkətə gəldi və Kazerun, Buşir və digər şəhərləri tutdular. Narazı qüvvələrə qarşı cəza tədbirləri tuğyana başladı. Qəvvam əs-Səltənənin "milli hərəkat" adlandırdığı bu hadisələrin təşkilatçıları öz hərəkətlərini "İranın istiqlaliyyətini və ərazi bütövlüyünü qorumaq" istəyi ilə bağlayırdılar. Bu vaxtdan etibarən, sovet orduları İrandan çıxarıldı, Qəvvam əs-Səltən tudəçiləri hökumətdən uzaqlaşdırdı. 1946-cı ilin dekabrın 10-da isə "məclisə azad seçkilər keçirilməsini təmin etmək" bəhanəsi ilə İran orduları Azərbaycana yeridildi, Təbriz və digər şəhərlər tutuldu. İstiqlalçı-demokrat qüvvələrə sarsıdıcı zərbələr vuruldu. Azərbaycan hökuməti yıxıldı, minlərlə insan güllələndi, dar ağacından asıldı və öldürüldü. Çoxları ölkədən çıxmağa məcbur oldu. Sonra İran orduları Kürdüstana yeridi və kürd demokratlarına da eyni divan tutuldu.

1947-ci ilin əvvəlində İran məclisinə seçkilər keçirildi. Məclis 1947-ci ilin 22 oktyabrında Qəvvam əs-Səltəninin təklifi ilə irəlidə haqqında danışılan sovet-iran sazişinin qeyri-qanuniliyi haqqında qərar qəbul etdi. Buna da səbəb o gətirilirdi ki, 1944-cü il 2 dekabr tarixli qanuna əsasən, hökumət neft konsessiyası vermək hüququndan məhrum edilmişdi. 1947-ci ilin 22 sentyabrında ABŞ hökuməti bildirdi ki, neft sazişinin rədd edilməsi səbəbindən İran gözlənilməyən nəticələrlə qarşılaşarsa ABŞ bu ölkənin torpaq bütünlüyünü qoruyacağına təminat verir. ABŞ-ın bu sərt mövqeyi Sovet İttifaqını onunla üz-üzə gəlməkdən çəkindirdi və Sovet İttifaqı baş vermiş faktla razılaşmağa məcbur oldu. 1947-ci ilin sonlarında Qəvvam əs-Səltən parlamentdəki tərəfdarlarının çoxunu itirdikdən sonra hakimiyyəti zəifləməyə başladı və hakimiyyətini itirdi. Bundan sonrakı dövrü İranda ABŞ mövqeyinin güclənməsi və neft sənayesinin milliləşdirilməsi uğrunda aparılan mübarizə ilə xarekterizə etmək olar.

1947-ci ilin 10 dekabrında Qəvvam əs-Səltənəni istefaya göndərməyi bacardılar. Baş nazir vəzifəsinə ingilispərəstliyi ilə tanınan İ.Həkimi gətirildi. Onun ilk tədbirlərindən biri İran Demokrat Partiyasının bağlanması oldu. 1951-ci ilin may ayına qədər ömür sürmüş bütün hökumətlərin (İ.Həkimidən sonra baş nazir vəzifəsini 1948-ci ilin sonlarında Məhəmməd Səid Marağai, 1950-ci ilin 27 iyunundan general Əli Razmara yerinə yetirmişdir) əsas fəaliyyəti İranın ABŞ və Böyük Britaniya ilə əməkdaşlığına önəm verməkvə bu zəmində ölkənin inkişafına nail olmağa yönəlmişdi.

İran iş adamlarının da böyük bir qismi daxili bazarın və ümumiyyətlə ölkənin hərtərəfli inkişafı baxımından neft sənayesinin milliləşdirilməsini qəti şəkildə tələb etməyə başladılar. Onların mövqeyini İran ziyalıları, ticarətçilər və sənətkarlar, həmçinin nüfuzlu şiə ruhaniləri müdafiə etdilər. Bütün bunlar onunla nəticələndi ki, həmin qüvvələr bir araya gəlib siyasi blok təşkil etdilər. Blok Milli Cəbhə adlanırdı, bir siyasi təşkilat olaraq 1949-cu ilin payızında yaranmışdı. Bəlli olduğu kimi, həmin dövrdə məclisə seçkilər kampaniyası gedirdi və blokun yaranmasında bu amilin də rolu az deyildi. Milli Cəbhənin başında doktor Müsəddiq (1879-1967) dururdu. O, İranın müstəqil xarici siyasət yeritməsi uğrunda çıxış edirdi, şahın və sarayın hüquqlarının genişləndirilməsinin əleyhinə idi, şaha edilən sui-qəsd cəhdindən sonra kütləvi represiyaların dayandırılmasını tələb edirdi. Ümumiyyətlə, həmin dövrdə istər İranın öz daxilində, istərsə də onunla bağlı xaricdə baş verən proseslər Milli Cəbhənin fəaliyyət imkanlarını genişləndirdi. 1949-1953-cü illərdə bu təşkilatın özəyini "Vətən" partiyası təşkil etsə də, müxtəlif görüşlü bir sıra ictimai və siyasi xadimlər də ona daxil olmuşdu. Milli Cəbhənin siyahısı ilə məclisə girənlər arasında "Mücahidan-e islam" təşkilatının yaradıcısı Kaşani, Demokrat Partiyasının bəzi görkəmli üzvləri, hətta İran Kommunist Partiyasının keçmiş üzvü də var idi. Onların hamısını isə bir istək birləşdirirdi: İran müstəqil daxili və xarici siyasət yeritməlidir, İİNK-ın milliləşdirilməsi ölkənin müstəqil inkişafının əsas şərti ola bilər. Elə sonuncu tezisdən çıxış edərək doktor Müsəddiq cənub neft yataqları üzərində İranın hüquqlarının bərpa edilməsini Milli Cəbhənin əsas proqram maddələrindən biri etmişdi.

Nəhayət, 1951-ci ilin 19 fevralında Müsəddiq neft sənayesinin milliləşdirilməsi haqqında qanun layihəsini məclisə təqdim etdi. Neft sənayesini milliləşdirməyin mümkünsüzlüyünü söyləyən və "əlavə sazişin" təsdiq edilməsi lehinə təkidli çıxış edən baş nazir Əli Razmara martın 7-də öldürüldü. Aprelin 26-da Müsəddiqin təqdim etdiyi qanun layihəsi təsdiqləndi və üç gündən sonra o, baş nazir təyin olundu. Müsəddiq 1953-cü ilin avqustuna qədər baş nazir kimi fəaliyyətini davam etdirdi (3, 134).

1951-ci ilin iyulundan ABŞ vasitəçiliyi öz üzərinə götürdü. ABŞ prezidenti Trumenin nümayəndəsi Harriman Tehrana gəldi. Lakin bu heç bir nəticə vermədi, belə ki, Böyük Britaniya İran neftini blokadaya almağı bacardı. 1951-ci ilin oktyabrında ABŞ və Böyük Britaniya məsələsini BMT Təhlükəsizlik Şurasına çıxarmaq istəsələr də, Müsəddiq buna razı olmadı. Şah 1952-ci ilin iyulunda Müsəddiqi baş nazir vəzifəsindən götürüb, onun yerinə Qəvvam əs-Səltənəni gətirdi. Lakin bu tədbir narazılıqla qarşılandı. İranda müxtəlif etiraz aksiyaları keçirildi. Polis və ordu işə qarışdı, qan töküldü. Nəticədə, iyulun 21-də Qəvvam əs-Səltənə istefa verdi və Müsəddiq yenidən baş nazir vəzifəsinə gətirildi. Müsəddiq 1953-cü ilin fevralında şahı taxtdan uzaqlaşmağa məcbur etdi. Müsəddiq bununla da İranda bütün hakimiyyəti öz əlində toplamış olurdu. Lakin o, hakimiyyətdə çox qala bilmədi. General

Zahidinin başçılığı altında 1953-cü ilin 19 avqustunda hərbçilərin təşkil etdiyi dövlət çevrilişi uğurla nəticələndi. Müsəddiq hakimiyyətdən salındı və həbs edildi. Üç gün sonra isə şah ölkəyə qayıtdı. General Zahidi baş nazir təyin olundu. Bundan sonra qərblə münasibətlər bərpa olunmağa başladı. İİNK və ABŞ neft şirkətlərinin nümayəndələrindən ibarət bir komissiya yaradıldı. Həmin komissiya ilə İran arasında 1954-cü ilin 5 avqustunda müqavilə imzalandı. Onun şərtlərinə görə, yeni yaradılmış konsorsiumun üzvlərinin payı aşağıdakı qaydada bölüşdürüldü: İİNK 40 %, Hollandiyanın Şell şirkəti 16 %, fransız neft şirkəti 6 %, beş ABŞ şirkətinin də hər biri 8 %-ə sahib oldu.

İran 1955-ci ilin 11 oktyabrında Bağdad paktına (1959-cu ildən SENTO) qoşuldu, 1957-ci ildə isə "Eyzenhauer doktrinası"nı tanıdı. 1959-cu ilin 5 martında İran və ABŞ arasında ikitərəfli hərbi saziş imzalandı.

1955-ci ildə xarici investisiyaların təşviq edilməsi haqqında, 1958-ci ildə isə xarici banklar üçün məhdudiyyətlərin ləğv edilməsi haqqında qanunlar qəbul olundu. Bu da imkan verdi ki, yüzlərlə ABŞ, Böyük Britaniya, Fransa, Qərbi Almniya, Yaponiya və s. şirkəti və bankı ölkədə fəaliyyətə başlasın. Lakin bir çox sahələrdə problemlər hələ də qalırdı.

İqtisadi və sosial çətinliklər şəraitində 1960-cı ilin sonlarında Mazandaran, Gilan, Azərbaycan və mərkəzi əyalətlərdə kəndli hərəkatı artdı. 1960-1962-ci illərdə siyasi stabilsizlik nəticəsində bir neçə dəfə hökumət dəyişikliyi baş vermişdi. 1953-cü il cevrilişindən sonra şahın hakimiyyət səlahiyyəti artmışdı və bundan istifadə edən şah İranı bölgənin liderinə çevirmək istəyirdi. Lakin ağır iqtisadi və sosial problemlər şəraitində bunu etmək çox çətin idi. 50-ci illərin ortalarından başlayaraq, şahın yanında yeni siyasi fikirli insanlar formalaşmağa başlamışdı. "Texnokrat" və "qərbyönümlü" adlandırılan bu şəxslər İrandakı ağır iqtisadi vəziyyəti düzəltmək üçün yeni layihələr hazırlayıb şaha təqdim edirdilər. Onlar hesab edirdilər ki, həmin dəyişikliklər ölkənin müasir təməllər əsasında inkişafını təmin edə bilər və İranın müasir kapitalist dünyası ilə inteqrasiyası mümkün olar. "Texnokratların" ideyaları şah tərəfindən qəbul olunduqdan sonra xalqın münasibətini bildirməsi üçün 1963-cü ilin 23 yanvarında altı qanun layihəsi üzrə referendum keçirilməsinə qərar verdi: 1) torpaq islahatı; 2) meşələrin milliləşdirilməsi; 3) torpaq islahatının maliyyələşdirilməsi üçün dövlət fabrik və zavodlarının satılması; 4) müəssisələrin gəlirlərində fəhlələrin iştirakı; 5) parlamentə seçkilər haqqında qanunun dəyişdirilməsi; 6) savadsızlığa qarşı mübarizə üçün "maarif korpusu"nun yaradılması (7).

1963-cü il mayında qadınlara da kişilərlə bərabər seçki hüququ verildi. Bir müddət sonra altı islahat qanununa daha altısı da əlavə olundu. Bunlardan ən mühümləri "tətbiq etmə korpusu"nun (mütərəqqi metodların kənd təsərrüfatına tətbiqi), kənddə yerli dava-dalaşlara baxmaq üçün ictimai məhkəmələrin, "səhiyyə korpusu"nun yaradılması, su mənbələrinin milliləşdirilməsi və s. idi. İslahatlar və onunla bağlı həyata keçirilən tədbirlər İranda "ağ inqilab" adı ilə məhşur olmuşdur.

Şah 1975-ci ilin martında bütün siyasi partiyaların buraxılmasını elan etdi və birpartiyalı sistem yarandı. Buna qədər millətçi ovqatlı müxalifətin mövqeyi zəifləmişdi. Bunun göstəricisi idi ki, Milli Cəbhənin fəallığı ümumiyyətlə nəzərə çarpmırdı. "Ağ inqilab"ın nəticələrindən biri də İranda din xadimlərinin hüquq və mövqelərinin müəyyən qədər sıxışdırılması oldu. Bu da təbiidir ki, ölkədə dövlət və məscid arasında mövcud olan ənənəvi qarşılıqlı əlaqələri pozmaya bilməzdi və İranda həmişə möhkəm mövqeləri və cəmiyyətə dərin təsir etmək imkanları olan din

xadimlərinin narazılığını doğurmaya bilməzdi.

Lakin şah və onun ətrafı qüvvətlənməkdə olan rəqiblərinin, ilk növbədə, klerikal qüvvələrin və solların təsir imkanlarını lazımınca dəyərləndirə bilmədilər. İslahatların ilk illərindən etibarən bu narazılıq açıq şəkildə dilə gətirilir, nüfuzlu din xadimləri -onların arasında görkəmli ilahiyyatçı Burucerdi xüsusilə fərqlənirdi - torpaq islahatı haqqında qanun layihəsinə qarşı çıxır, məclis üzvlərini ona qarşı çıxmağa və əleyhinə səs verməyə çağırırdılar. 1961-ci ildə Borucerdinin ölümündən sonra islahatların keçirilməsinə qarşı din xadimlərinin mübarizəsinə ayətullah Xomeyni (1900-1989) başçılıq edirdi. O, çıxışlarında və yazılarında bildirirdi ki, hökumətin hazırladığı islahatlar, o cümlədən, torpaq islahatı Quranın müddəalarına və İslam əxlaqının normalarına ziddir. Ayətullah Xomeyninin kəskin tənqid etdiyi məsələlərdən biri də qadınların kişilərlə eyni hüquqa malik olması haqqında verilən qanun idi. Ayətullah Xomeyninin bu fikirlərini digər tanınmış din xadimlərindən ayətullah Bəhbəhani, ayətullah Şəriət-Mədari, ayətullah Taleqani və b. müdafiə edir və xalq arasında yayırdılar. Bu qüvvələr az sonra sözdən işə keçdilər. 1962-ci ilin yanvarında dini mərkəz Qumda, həmin ilin dekabrında Tehranda şiə ruhanilərinin təşkil etdiyi kütləvi çıxışlar baş verdi. 1963-cü ilin iyununda isə bu çıxışların miqyası daha da genişləndi və digər əyalət mərkəzlərində hökumətə qarşı çıxışlar oldu. Bunun qarşısını almaq üçün 1964-cü ilin noyabrında Xomeyni ölkədən çıxarıldı. O, əvvəlcə Türkiyəyə, oradan da İraqa keçməli oldu. Sonra isə birdəfəlik Fransada qərar tutdu. Xomeyni mühacirətdə olarkən fəaliyyətini dayandırmadı, əksinə daha da canlandırdı.

70-ci illərin sonlarında İranda sosial-siyasi böhran şahın bütün səylərinə baxmayaraq daha da genişləndi. Həmin dövrdə ölkədə nüfuzlu ayətullahlar hərəkata qoşulmuşdular və onların da başında ayətullah Xomeyni dururdu. Məhz o, şaha qarşı açıq çıxışların əsasını qoydu, məhz o da şah hakimiyyətini devirməyə gətirən İslam inqilabını qələbə ilə başa çatdırdı. Hadisələr isə 1978-ci ilin yanvarında başladı. Şah Qumda etiraz edən insanlara qarşı silah işlətdi və bundan qəzəblənən insanlar Təbrizdə və başqa şəhərlərdə etirazlara başladılar. Neft mədənlərində fəhlələrin etiraz etməsilə neft hasilatı aşağı düşdü və şah əsas gəlir mənbəyini itirdi. 1978-ci ilin avqustunda İsfahanda baş verən hadisələr İrandakı qarşıdurmaları bir dönüş nöqtəsinə gətirdi. 1978-ci ilin sonlarında şah etirazların qarşısını almaq üçün yeni cəhdlər etməyə başladı. Hərbiçilərdən ibarət hökumət 1979-cu ilin 6 yanvarında mülki hökumətlə əvəzləndi, onun başçılığına isə Milli Cəbhənin nüfuzlu liderlərindən Ş.Bəxtiyar gətirildi. Bununla şah həm də istəyirdi ki, müxalifəti parçalasın, ən azı laik siyasətçiləri klerikallardan ayırsın və öz tərəfinə çəksin. Ancaq onun bu niyyəti baş tutmadı. Milli Cəbhə Ş.Bəxtiyarı öz sıralarından çıxardı. 1979-cu ilin 16 yanvarında şah Məhəmməd Rza Ş.Bəxtiyarın tövsiyəsi ilə İranı, çox ehtimal ki, müvəqqəti olaraq düşüncəsi ilə tərk etdi. Bu xəbər xalqda çox böyük ruh və həvəs yaratdı. Xalq küçələrə töküldü, şahın portretləri cırılır, onun şərəfinə qoyulmuş abidələr darmadağın edilirdi. Fevralın 1-də Xomeyni mühacirətdən qayıtdı. Xomeyni ilk çıxışında bildirdi ki, mübarizəni şahlıq rejiminin yıxılmasına kimi davam etdirmək lazımdır və ümumxalq seçkisi yolu ilə «həqiqi Müəssisələr Məclisi» yaradılmasının tərəfdarıdır. Bir tərəfdə Ş.Bəxtiyarın başçılıq etdiyi hökumət vardı və onun da arxasında ordu və digər güc qüvvələri dayanırdı. Buna görə də o istefa verməkdən imtina edir və bildirirdi ki, şah diktaturasının ruhanilərin diktaturası ilə əvəz olunmasına yol verməyəcəkdir. O biri tərəfdə isə Xomeyninin qeyri-rəsmi hakimiyyəti vardı və onun da arxasında bütün ölkə boyu yaradılmış «islam inqilab komitələri»

dayanırdı. Ayətullah Xomeyni fevralın 4-də Milli Cəbhənin başqa bir tanınmış lideri M.Bazarqanı Müvəqqəti İnqilabi hökumətin başçısı təyin etdiyini də bildirdi.

Həmin vaxtda bir sıra solçu qüvvələr xaıqı silahlı mübarizəyə çağırırdılar. Xomeyni isə düşünürdü ki, hadisələrə silah qarışsa, hər şey nəzarətdən çıxa bilər. 1979-cu ilin fevralın 9-10-da Tehranın yaxınlığındakı aviasiya bazasında baş verən hadisələr belə bir təhlükənin olduğunu ortaya çıxardı. Şah qvardiyasının dəstələri aviasiya bazasının işçilərinə hücum etdiyindən, işçilər silaha əl atdılar. Hücuma məruz qalanların köməyinə ilk olaraq fədailər, mücahidlər və Tudə partiyasının üzvləri gəldilər. Onlar şah qvardiyası dəstəsinin hücumunun qarşısını aldılar və geri oturtdular. Bundan sonra isə Tehranda hakimiyyətin əsas dayaq məntəqələrinə — polis şöbələrinə, jandarma və polis idarəsinə, SAVAK-ın qərargahına hücuma keçdilər. Üsyan başlandı və az sonra radio verilişləri, televiziya mərkəzi, məclis binası tutuldu. Tehrandan sonra bir sıra əyalət mərkəzlərində də silahlı üsyanlar oldu. Bunun nəticələrinin məsuliyyətini dərk edən Ali Hərbi Şura öz bitərəfliyini bildirirdi və ordu birləşmələrinə kazarmalara çəkilmək əmri verildi. Baş nazir Ş.Bəxtiyar ölkəni tərk etdi. Fevralın 12-də şah qoşunlarının müqaviməti tamamilə dayandırıldı. Beləliklə, fevral üsyanı qalib gəldi və tarixdə fevral inqilabı adını aldı. «İnqilab keşikçiləri» və «islam komitələri» yerlərdə tam hakimiyyət sahibi oldular.

1979-cu ilin martın 30-31-də referendum keçirildi. İnsanlar monarxiyanın ləğv edilməsinə və İran İslam Respublikasının yaradılmasına razılıq verdilər. 1979-cu ilin aprelin 1-də İran İslam Respublikasının yaradıldığı elan edildi. Bundan sonra İran SENTO-dan çıxdığını bildirdi, ABŞ və Qərb ölkələri ilə bağlanmış bir sıra hərbi və mülki xarakterli kontraktların pozulmasına qərar verdi, ABŞ hərbi bazalarını bağladı. Bunlardan əlavə, Beynəlxalq Neft Konsorsiumu ilə bağlanmış saziş ləğv olundu, çoxsaylı xarici, xüsusilə, ABŞ bankları və şirkətlərinin fəaliyyətinə son qoyuldu. 1979-cu ilin noyabrında ABŞ səfirliyi tutuldu və onun bütün əməkdaşları «girov» elan edildi.

İran konstitusiyası 1979-cu ilin dekabrında referendum yolu ilə qəbul olundu. Yeni konstitusiyaya görə, Xomeyni «ali rəhbər» («vilayət-e fəqih») funksiyasını yerinə yetirirdi və İran İslam Respublikasının bütün hakimiyyət orqanlarından üstün mövqedə dayanırdı. Hakimlər və hərbi rəhbərlər, Ali Milli Müdafiə Şurasının üzvləri, hətta ümumxalq səsverməsi ilə seçilən prezidentin namizədliyi Xomeyni tərəfindən təsdiq olunmalıydı. 12 nəfərdən ibarət Nəzarətçilər Şurasının («Şura-ye Nigahban») üzvləri Xomeyni tərəfindən təyin olunurdu. Xomeyni həm də İran ordusunun Ali baş komandanı oldu.

1980-ci ilin yanvar ayında prezident seçkiləri keçirildi və doktor Bəni Sədr İranın ilk prezidenti oldu. O, Sarbonna universitetində iqtisad elmləri üzrə təhsil almışdı. Martın 14-də və mayın 9-da isə məclisə iki dövrədə seçkilər keçirildi. Seçkilərdə Cümhuriyyətçi İslam Partiyası üstünlük qazandı. Məclisin sədri isə Məhəmməd Əli Rəcai oldu. Qısa vaxtdan sonra Bəni Sədri dəstəkləyən mərkəzçi qüvvələr ilə M.Ə.Rəcainin başçılıq etdiyi radikal sağçı və dinçilər arasında bir mübarizə başladı. Mübarizə 1980-ci ilin sentyabrında başlayan İran-İraq müharibəsi dövründə xüsusilə gücləndi. Bu mübarizədə kommunist tudəçilər Rəcaini, radikal islamçı «Xalq mücahidləri» isə Bəni Sədri dəstəkləyirdilər. Məclis Rəcainin tərəfində olduğundan, Xomeyni Bəni Sədrə arxa durmaqdan çəkildi və iyulun 10-da onu baş komandanlıqdan, 21-də isə prezidentlikdən azad etdi. Baş nazir M.Bazarqanın və ilk prezident Bəni Sədrin vəzifələrindən azad edilməsi faktik olaraq Cümhuriyyətçi İslam

Partiyası liderlərinin mövqelərinin tam qalib gəlməsinin əlaməti idi. Mövqelərini möhkəmlədən dini siyasi qüvvələr daha sonra marksist-leninçi fədailər və mücahidlərə qarşı, sonra isə Tudə partiyasının üzvlərinə qarşı təqiblər başlatdı. Onlardan çoxu Sovet İttifaqına casusluqda suçlandırıldı. Bundan sonra dini siyasi qüvvələr ölkədə hakimiyyəti möhkəmlədə bildi (6).

1979-cu ilin noyabrın 4-də Xomeyni tərəfdarı olan tələbə gənclərin Tehrandakı ABŞ səfirliyinə hücum etdi, səfirliyin 63 əməkdaşını girov götürdü. Tələbləri isə bu cür oldu ki, ABŞ şahı geri qaytarsın. Bu məsələ BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edildi və İranın bu hərəkətini pisləyən qərar qəbul olundu. 1980-ci ilin 7 aprelində İranla diplomatik münasibətlər kəsildi. ABŞ-ın xahişi ilə Avropa İqtisadi Birliyi ərzaq və tibbi ləvazimatlar istisna olunmaqla İrana qarşı iqtisadi sanksiyalar tətbiqinə qərar verdi. Lakin bunlar bir nəticə vermədiyindən ABŞ aprelin 24-də Hind okeanındakı hərbi donanmasından 8 helikopterində (vertalyotında) 90 nəfərlik bir desant dəstəsini Tehranın 400 km-liyində yerə endirməyə cəhd göstərdi. Lakin bu cəhd tam uğursuzluqla nəticələndi. Mayın 17-22-də İslamabadda toplanan İslam Konfransı Təşkilatı ABŞ-ın İrana desant çıxarmaq cəhdini pisləməklə yanaşı İrandan da girovlar məsələsinin həllini tələb etdi. 18 mayda Avropa İqtisadi Birliyi üzvü olan ölkələrin İrana qarşı iqtisadi sanksiyaları gücləndirməsinə qərar verildi. Haaqa Beynəlxalq Məhkəməsi və Sosialist İnternasionalının cəhdləri də əlavə olunmaqla bütün bu tədbirlərin heç biri İranı atdığı addımdan geri çəkindirmədi. Amma həmin vaxtda İraqla aparılan müharibə İranı geri çəkilmək məcburiyyətində qoydu. ABŞ banklarındakı dondurulmuş İran hesablarının açılması şərtilə 1981-ci ilin 21 yanvarında girovlar azad edildi.

İran-İraq müharibəsi 1975-ci il martın 6-da OPEK-in Əlcəzairdə keçirilən konfransında İran şahı Məhəmməd Rza Pəhləvi və İraqın baş naziri Səddam Hüseyn arasında Şəttül-Ərəb (Ərvəndrud) çayının yatağı boyunca İran-İraq sərhədinin müəyyənləşdirilməsi barədə müqavilə imzalandı.(İranda "Müqəddəs müdafiə" (دفاع مقدس, Defae-moqaddas), İraqda isə "Səddam Qədisiyəsi" (قادسيّة صدّام, Qədisiyyat Səddam) adı ilə tanınır). Dəclə və Fərat çaylarının qovuşmasından yaranan Şəttül-Ərəb çayı böyük neft yataqları ilə zəngindir. İraq bu çayın iri liman şəhərləri Xürrəmşəhr və Abadanın yerləşdiyi şərq sahillərinə iddia edirdi. İran isə sərhəddin talveq xətti, yəni çay yatağının orta xətti boyunca çəkilməsinin tərəfdarı idi.

Müharibənin başlanmasına səbəb olan əsas amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Ərəb-fars etnik konflikti; Ərazi mübahisəsi - İraqın İrana qarşı ərazi iddiaları (Xuzistan əyalətini ələ keçirmək planları, Şəttül-Ərəb çayının bölünməsi problemi, İraqın Küveyti öz əyalətinə çevirmək istəyinə qarşı İranın etirazları); Siyasi görüşlərdə müxtəliflik; Sünni-şiə qarşıdurması; Dünya bazarında neft ixracı uğrunda rəqabət; İki dövlət rəhbərlərinin şəxsi ambisiyaları.

Səddam Hüseyn 17 sentyabr 1980-ci ildə 1975-ci il Əlcəzair razılaşmasını pozaraq Şəttül-Ərəb çayının şərq sahillərini İraq ərazisi elan edir və Əbu Musa, Böyük və Kiçik Tonb adalarının İran ordularından təmizlənməsi tələbini irəli sürür. 22 sentyabr 1980-ci ildə İraq ordusu İran ərazisinə geniş miqyaslı hərbi müdaxiləyə başlayır. Müharibənin başlanmasına bəhanə rolunu həmin ilin aprelində İraqın cənubunda Xarici İşlər naziri Tariq Əzizə qarşı həyata keçirilmiş sui-qəsd cəhdində İran agentlərinin ittiham edilməsi oynadı.

1980-ci il sentyabrın 28-də BMT Təhlükəsizlik Şurası 479 saylı "İran və İraq

arasındakı münasibətlərin mövcud vəziyyəti" adlı qətnamə qəbul edir. İlk dövrdə müdaxilənin gözlənilməzliyi və İraq ordusunun say üstünlüyü hesabına iraqlılar İran ərazisinin 20 000 km²-lik hissəsini ələ keçirdilər. Hücum əməliyyatlarının həyata keçirildiyi Xuzistan ostanında İraq ordusunun 5 diviziyasına qarşı İranın yalnız 1 diviziyası döyüşürdü. İslam İnqilabı Mühafizəçiləri Korpusu hələ tam formalaşmamışdı. ABŞ-la əlaqələrin kəsildiyindən ABŞ istehsalı olan silahların ehtiyyat hissələrini İran ala bilmirdi (4).

İraq zabitlərinin düzgün qərarlar qəbul etməməsi və rəqibi qiymətləndirməməsi, genişmiqyaslı hərbi əməliyyatlar keçirmək təcrübəsinin olmaması tezliklə İraq ordusunun təşəbbüsü əldən verməsinə səbəb oldu. Oktyabrın sonları və noyabrda İraq ordusu Dəsful və Əhvaz istiqamətində irəliləməyə çalışsa da, bu cəhdlər uğursuz oldu. Dekabr ayında yağışlar mövsümünün başlanması və hərəkətin çətinləşməsi ilə S.Hüseyn İraq qoşunlarının müdafiə mövqeyinə keçdiyini elan etdi.

1981-ci ilin yanvarında İran əks-hücuma keçdi. Bu tam uğursuzluqla nəticələndi. 16-cı tank diviziyası özünün 3 briqadasından 2-ni tamamilə itirdi.

Mart ayında Susəngərd üzərinə həyata keçirilən və uğursuz olan hücumdan sonra İraq ordusu ilin sonunadək heç bir hücum əməliyyatı həyata keçirmədi. Çünki İraq rəhbərliyi İrandakı rejimin tezliklə devriləcəyinə ümid edirdi. Belə ki, İran ordusu və İslam İnqilabı Mühafizəçiləri Korpusu arasında rəqabət gedirdi. İslam İnqilabı Mühafizəçiləri Korpusu ordunun zabit heyətinin şah rejiminə tərəfdar olmasından şübhələnirdilər.

Yanvar məğlubiyyəti prezident Ə.Bənisədrin mövqelərini və orduya olan etibarı sarsıtdı. İyun ayında Bənisədr hakimiyyətdən uzaqlaşdırıldı və ölkəni tərk etdi.

İran ordusu sentyabrda Abadanın mühasirəsini aradan qaldırmaq üçün iri hərbi əməliyyatlara başladı. Sentyabrın 26-dan 29-dək davam edən əməliyyat uğurla nəticələndi. Bu İranın müharibə dövründəki ilk böyük uğuru oldu. Bu uğur ordu və İİMK-nin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdu.

1982-ci ilin martından may ayına kimi Xürrəmşəhr azad edildi. Hərbi əməliyyatlar İraq ərazisinə keçdi. 1982-ci ilin iyununda Səddam Hüseyn sülh danışıqlarına başlamaq istədiyini bildirsə də, İran hakimiyyəti buna razı olmadı. Səddam isə ABŞ və digər müttəfiqlərindən əlavə silah, hərbi texnika və kimyəvi silahlar aldı.

1982-ci ilin ortalarından 1987-ci ilə qədər İran İraqın dəniz limanı olan Bəsrəni ələ keçirməyə çalışdı. Bu əməliyyatlarda İran "canlı dalğalar"-dan (könüllü silahlılar) istifadə edirdi. Lakin İraqın müdafiə xəttini tam yarmaq mümkün olmadı.

1984-cü ilin sonunda "tanker müharibəsi" başlayır və Fars körfəzində üçüncü dövlətlərin neft tankerlərinə də zərbə vurulur. İran Fars körfəzində yerləşən ərəb dövlətlərinin neft tankerlərinə zərbə vurmaqla dünyada yeni neft böhranı yaratmağa çalışır. Eyni zamanda mühasirədə saxladığı Fao yarımadasından Küveytə raket zərbələri endirir. "Tanker müharibəsi" vuruşan tərəflərin maddi ehtiyatlarının tükənməsi ilə nəticələnir. Londonun "Lloyd" sığorta şirkətinin verdiyi məlumata görə, hər iki tərəfdən 500 gəmiyə hücum edilmiş, onlardan 160-ı tam məhv edilmişdi. Tehran Bağdad və körfəzdə marağı olan dövlətlər atəşkəs elan olunması və sülh imzalanmasının vacibliyini anlayırlar.

İran 1986-cı ilin fevralında Fao yarımadasını müzasirəyə almaqla İraqın Fars körfəzi ilə əlaqəsini kəsir.

1984-cü ilin aprelində Səddam bitərəf ərazidə Ayətullah Xomeyni ilə sülh danışıqlarına başlamağı təklif etsə də, onun təklifi qəbul edilmədi.

1986-cı ilin payızında İran müharibəni qurtarmaq üçün aşağıdakı şərtləri İraqa təklif edir:

-Səddam Hüseynin hakimiyyətdən getməsi;

-Bəəs partiyasının siyasi arenadan uzaqlaşması;

- İsrailə qarşı müharibədə İraqın iştirak etməsi;

-Bağdadda İranı razı salacaq hakimiyyətin qurulması.

1986-cı ilin noyabrında Səddam Hüseyn İran hökümətinə açıq müraciətnamə göndərərək aşağıdakı təklifləri irəli sürür:

- Tərəflərin tam şəkildə və şərtsiz olaraq beynəlxalq aləm tərəfindən tanınmış sərhədlərə doğru geri çəkilməsi;

-Bütün hərbi əsirlərin qaytarılması;

-Hər iki tərəf arasında sülh və hücum etməmək haqqında müqavilə imzalanması;

-Tərəflərin bir-birinin işinə qarışmaması;

-Fars körfəzi regionunda İran və İraqın təhlükəsiz və sabit yaşayışının təmin olunması (2, 234).

Lakin hər iki tərəf bir-birinin təkliflərini qəbul etmir.

1988-ci ilin iyulunda İraq təyyarələri İranda kürdlərin məskunlaşdığı Zərdan kəndinə sianid bombaları atdılar. Bundan 4 ay əvvəl Səddam Hüseynin əmrilə İraqın şimalındakı üsyançı kürd qruplaşmalarını ləğv etmək bəhanəsilə əsasən kürdlərin məskunlaşdığı Hələbiyə şəhəri də bənzər hücuma məruz qalmış və nəticədə 5000-ə yaxın insan həlak olmuşdu.

1986-1987-ci illərdə Bəsrə yaxınlığındakı Fao yarımadasını və İraq ərazisinin müəyyən bir hissəsini mühasirəyə alır və "şəhərlər müharibəsi" və "tanker müharibəsi" yenidən qızışır.

1987-ci ildə ABŞ və bəzi NATO ölkələrinin hərbi-dəniz donanması tankerlərin ixrac edilməsi əməliyyatına başlayır. Amerika və İran gəmiləri və təyyarələri arasında da bir sıra silahlı toqquşmalar baş verir. İranın beynəlxalq təcrid olunması faktorundan istifadə edən İraq iqtisadiyyatını müharibə yolunda səfərbər edərək, 1988-ci ilin yaz-yayında öz ərazisini İran qoşunlarından təmizləmək istiqamətində bir neçə uğurlu əməliyyat keçirir. Müharibənin gələcək perspektivlərini görməyən Ayətullah Xomeyni sülhə razı olur.

İraq 1988-ci ilin aprelindən hücum əməliyyatlarını artıraraq 48 saat ərzində qanlı döyüşlər nəticəsində Fao yarımadasını geri qaytardı. Bu hadisə İraq üçün müharibədə dönüş nöqtəsi oldu. May ayında İraq qoşunları iranlıları Bəsrənin şərqindəki Salamançexa ərazisindən çıxardılar, iyunda isə 1985-ci ildə İran tərəfindən zəbt olunmuş Məcnun adalarını azad etdilər. İraq iyulun əvvəlində Kürdüstan əyalətindən İran ordularını çıxarır, ayın sonunda isə İran-İraq sərhəddinə daha da irəliləyərək İrana məxsus bir neçə sərhəd rayonlarını tutur. 1988-ci ilin avqustundan İraq hərbi hissələri iranlılara aramsız hücumlar sayəsində bir çox işğal edilmiş əraziləri azad edirlər.

1988-ci ilin iyulunda Cenevrədə danışıqlar başlayır. Xomeyni BMT TŞ-nin 1987-ci il 598 saylı qətnaməsinin tələblərini qəbul edir. BMT-nin və İslam Konfransı Təşkilatının vasitəçiliyi ilə 1988-ci ilin avqustun 20-də atəşkəsin tətbiqinə başlanıldı. Atəşkəs avqustun 25-də qüvvəyə minir.

Müharibədə hər iki tərəfdən 1 milyondan çox adam öldürülmüşdü. Müharibədə hər iki tərəfə dəyən ziyanın məbləği 350 milyard dollar olduğu güman edilir.

Bu müharibə Xomeyniyə bütün dünyada haqq işi uğrunda cəsarətlər göstərən bir mübariz şöhrəti gətirdi. Həqiqətən də, ömrünün sonuna kimi Xomeyninin nüfuzu çox yüksək olaraq qaldı. Dünyanın bir sıra ölkələrindəki şiə müsəlmanlar onu özlərinin dini rəhbəri sayırdılar.

1989-cu ildə Xomeyni vəfat etdikdən sonra ali dini rəhbər vəzifəsinin əhəmiyyəti nisbətən zəiflədi. Prezident vəzifəsinin əhəmiyyəti artdı. S.Ə.Xamneyi yeni ali dini rəhbər oldu.

Bəni Sədr istefaya getdikdən sonra bu vəzifəyə namizəd olan Behişti 1981-ci ilin iyun ayında öldürüldü. Məhəmməd Əli Rəcai iyulun 24- də prezident seçildi. Lakin o da avqustun 30-da öldürüldü. Oktyabrın 20-də Seyid Əli Xamneyi qalib gəldi. 1985-ci ildə ikinci dəfə də bu vəzifəyə seçildi. 1989-cu ildə Əli Əkbər Haşimi Rəfsəncani prezident seçildi. 1993-cü ildə Əli Əkbər Haşimi Rəfsəncani ikinci dəfə prezident vəzifəsinə seçildi. 1997-ci ildə isə Seyid Məhəmməd Xatəmi prezident seçildi.

1992-ci il aprelin 5-də İran təyyarələrinin müxalifətçi «Mücahidan-e xəlq» təşkilatının hərbi strukturu olan Milli Azadlıq Ordusunun İraqda yerləşən bazasına zərbələr endirildi. Bir təyyarə vuruldu və həm də cavab olaraq tarixdə bənzəri olmayan bir aksiya həyata keçirildi: İranın BMT-dəki nümayəndəliyinə, Bonn, Haaqa, Oslo, Kopenhagen, Bern, Paris şəhərlərindəki səfirlik və konsulluqlarına, İran hava şirkətinin Londondakı nümayəndəliyinə eyni zamanda basqınlar oldu və həmin təşkilatlara kifayət qədər maddi xəsarət yetirildi.

Belə vəziyyət cəmiyyətdə mötədil islamçıların mövqelərini möhkəmləndirdi. 1992-ci ilin parlament seçkilərində prezident Rəfsəncaninin ətrafında toplaşan mötədillər yerlərin 68%-ni qazandılar. Radikalların 13 il sürən üstünlüyünə son qoyuldu. Bundan sonra Qərblə əlaqələr yaradılması üçün fəaliyyət imkanları genişləndi.

1990-cı il mayın 1-də parlament işləri üzrə prezident müavini A.Mohacerani bildirdi ki, ABŞ-la danışıqlar mümkündür və iki dövlət arasında əlaqələrin olmaması birinci növbədə İrana ziyandır. Çünki ABŞ banklarında İrana məxsus hesablar dondurulub və haqqı ödənilmiş silahların ölkəyə gətirilməsinə Vaşinqton icazə vermir. Doğrudur, bu fikir kəskin tənqidlər və nümayişlərlə qarşılandı. Lakin 1992-ci il parlament seçkilərində qalib gələn mötədillər məsələnin parlament səviyyəsində müzakirəsinə nail oldular. Bu təşəbbüs nəticəsiz qaldısa da, hakim dairələr ümumi ovqatı nəzərə almaq məcburiyyətində qaldılar və bildirdilər ki, ABŞ-la əlaqələr qurulması üç şərt daxilində mümkün ola bilər:

1) İranın dondurulmuş hesablarının açılması;
2) İsraildəki sionist rejiminin müdafiəsindən ABŞ-ın imtina etməsi;
3) Fələstin və livanlıların azadlığına maneçilik törədilməməsi.

1990-cı ilin 1-9 mayında Haaqada ABŞ və İran arasında bir sıra mülki iddiaların təmin edilməsi barəsində aparılan danışıqlarda razılaşmalar əldə edildi.

1990-cı ildə Rəfsəncani İraq prezidenti S.Hüseynlə sülh müqaviləsini imzalamağa hazır olduğunu bildirdi. BMT-nin baş katibi Peres de Kuelyarın vasitəçiliyi ilə iyulun 3-də Cenevrədə birbaşa İran-İraq danışıqları baş tutdu və müqavilə imzalandı. Danışıqların növbəti turu dekabrda Tehranda keçirildi və əldə edilən razılaşmaya görə, tərəflər 1991-ci il yanvarın 9-na kimi öz qoşunlarını tutduqları ərazidən geri çəkməli oldular.

İran SSRİ dağıldıqdan sonra yeni yaranan müsəlman ölkələri ilə yaxın münasibətlər yaratmaqda maraqlı idi. 1992-ci ilin 15-17 fevralında qonşu müsəlman

dövlətlərinin cəmləşdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) Tehranda toplanması həmin istəyə doğru atılan addımlardan biri oldu. Toplantıda İran, Türkiyə, Pakistan, Azərbaycan, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan iştirak edirdi. Toplantının sonunda qəbul olunan sənəddə təşkilata üzv olan dövlətlər arasında iqtisadi əməkdaşlığın yüksək səviyyədə təşkili üçün modern və səmərəli infrastrukturaların yaradılmasının vacibliyi xüsusi vurğulanmışdır. İranın MDB ölkələri ilə əməkdaşlığı genişləndirmək istəyindən doğan ikinci addımı «Xəzər dənizi dövlətlərinin əməkdaşlığı» təşkilatı yaradılması təşəbbüsünü irəli sürməsidir. Bu təşkilatın Rusiya Federasiyası, Türkmənistan, Qazaxıstan, Azərbaycan və İranı birləşdirməsi nəzərdə tutulur və belə hesab edilir ki, Xəzərin ekologiyasının qorunması və onun ehtiyatlarından düzgün istifadə edilməsi üzv dövlətlərin birgə əməkdaşlığı nəticəsində səmərəli ola bilər.

Həmin illərdə rəsmi kursa qarşı hər hansı bir etiraz kəskin reaksiya doğururdu. Ayətullah Müntəziri 1993-cü ilin fevralında Xomeyni ilə bağlı tənqidi fikir söylədiyinə görə həbs edildi. Mayda «Qeyri-islami təsirlərdən cəmiyyətin qorunması» haqqında qanuna əsasən, açıq-saçıq paltar geyən qadınların və əxlaqsız filmlər yayan şəxslərin ölümlə cəzalandırılması tətbiq olunmağa başladı. 1995-ci ilin aprelində «İran xalqının Qərbin mədəni təcavüzündən qorunması» haqqında qanun qüvvəyə mindi. Peyk antennalar bu qanuna əsasən ləğv olunurdu.

1996-cı ilin martda keçirilən parlament seçkisində radikallar yerlərin çoxunu tuta bildilər. 1997-ci ildə keçirilən prezident seçkilərində mötədillərin nümayəndəsi S.M.Xatəmi qalib gəldi. Seçkiqabağı təbliğatında o, dünyanın bir sıra ölkələri ilə, xüsusilə də, müsəlman dövlətlərilə əlaqələri yaxşılaşdırmağa çalışacağına, qadınlar və gəncləri vəzifələrə çəkəcəyinə, inflyasiyanın qarşısını alacağına və qiymətlərə nəzarət qoyacağına söz vermişdi. S.M.Xatəmi «Qərbin ən yaxşı xüsusiyyətlərinə yiyələnmək» fikrini də ortaya atmışdı. Bunlar radikal qüvvələrin etirazına səbəb olurdu və 1998-ci ilin aprelin 4-də S.M.Xatəminin ən yaxın tərəfdarlarından olan Tehran valisi Q.Kərbasçının həbsi oldu. O, rüşvətxorluqda ittiham olunurdu. Bu hadisə böyük əks sədaya səbəb oldu. Lakin cəmiyyət buna etiraz etdi. 400 şəhər valisi dini rəhbər Xameneyiyə məktubla müraciət etdi. Bundan sonra Q.Kərbasçı aprelin 14-də azad edildi. Aprelin sonlarında ayətullah Müntəzirinin mitinq keçirən tərəfdarlarının zindana atılması ilə ölkədə yenidən iğtişaşlar başladı. Qeyd etmək lazımdır ki, ayətullah Müntəzirinin özü isə hələ 1997-ci ildən ev dustağı idi.

S.M.Xatəmi fəaliyyətinə başlayan zaman seçkiqabağı verdiyi vədə əməl edərək müavinlərdən birini qadın təyin etdi. O, 37 yaşlı Məsumə Ebtekar oldu. Minimum islahatlar keçirildi. Qadınlara bədii kitab oxumaq hüququ verilməsi, məhbuslarla yaxşı rəftar edilməsi və s. kimi tədbirlər bu qəbildəndir.

Xatəmi islahatların və qərblə yaxınlaşmanın tərəfdarı idi.Belə vəziyyət islahatçılar və mühafizəkarlar arasındakı münasibəti kəskinləşdirdi. Bu münasibət Xameneyi və Xatəmi arasında ziddiyyətə səbəb oldu. 1999-cu ilin yayında tələbə nümayişləri oldu. 2000-ci ilin mayında Xatəminin qardaşı - M.R.Xatəminin rəhbərlik etdiyi islahatçılar seçkini qazandılar. Seçkilərdən sonra Qərblə İran arasında istiləşmə müşahidə olundu. 2001-ci ildə keçirilən seçkilərdə Xatəmi yenidən qalib gəldi.

2003-cü ildə yerli idarəetmə orqanlarına və 2004-cü ilin fevral-may Məclis seçkilərində mühafizəkarlar qalib gəldilər. 2005-ci il Məclisə keçirilən seçkilərdə mühafizəkarlar əksər yerləri tutdular. İranda keçirilən son 17 iyun 2005-ci il tarixli seçkilərin ilkin mərhələsində Rəfsəncani qələbə çalsada, ikinci turda gözlənilmədən

Tehranın keçmiş meri, qatı-mühafizəkar Mahmud Əhmədinecad 62% səslə qalib gəldi. 6 avqust 2005-ci ildə inauruqasiya oldu. Əhmədinecad ölkədə islam prinsiplərinə uyğun sosializm qurmağı söz verib. Amerika Birləşmiş Ştatları və İsrail seçkilərin nəticələrini tanımadıqlarını bəyan etdilər.

İran konstitusiyasına görə, hakimiyyət qanunverici, icraedici və məhkəmə hakimiyyətlərindən ibarətdir. İcraedici hakimiyyəti prezident həyata keçirir. Prezident seçki yolu ilə 4 illik seçilir. Eyni şəxs bu vəzifəni iki dəfə tuta bilər. Prezident həm də Nazirlər kabinetinin işinə rəhbərlik edir. Qanunverici hakimiyyəti isə İslam Şurası və ya Məclis adlanan birpalatalı parlament həyata keçirir. Parlament üzvlərinin sayı 270 nəfərdir.

Konstitusiyaya və 1981-ci ildə verilmiş fərmana əsasən, ölkədə qeyri-İslam təşkilatlarının fəaliyyəti qadağan olunub. Ölkənin ən nüfuzlu partiyası Xomeyni tərəfindən 1979-cu ildə yaradılan İslam Respublikası partiyasıdır. İranın Azadlığı Uğrunda Hərəkat, Xalq Partiyası və digər partiyalar müxalifətdə duran partiyalardır.

Konstitusiyaya görə, fəqih adlanan ali dini rəhbər ölkənin bütün həyatına rəbərlik edir. Ali dini rəhbər ölkənin silahlı qüvvələrinin baş komandanı və hərbi kəşfiyyatın rəhbəridir. Ali dini rəhbər polis rəhbərliyini, məhkəmə hakimlərini və hər növ qoşunun rəhbərliyini təyin edir. O üzvlərini özünün təyin etdiyi Ekspertlər Assambleyasına rəhbərlik edir. Müdafiə və kəşfiyyat nazirlərini prezident təyin etsə də, namizədlər Ali dini rəhbərin razılığından sonra təyin olunmalıdır.

Məhkəmə sistemi əsasən Xalq məhkəməsinə əsaslanır. Əsasən, mülki və cinayət məsələlərini həll edir. Bundan başqa, İnqilab məhkəməsi də fəaliyyət göstərir. Eyni zamanda İranda başında Ali dini rəhbərin dayandığı Xüsusi Mənəvi məhkəmə fəaliyyət göstərir. Ali dini rəhbər Xalq və İnqilab məhkəmələrinin hakimlərini təyin edir.

2005-ci il iyunun 26-da M.Əhmədinecad İranın yeni prezidenti seçildi. Bundan sonra ABŞ və Avropa İttifaqı ölkələrinə qarşı siyasət daha da sərtləşdirildi. Avqustun 2-də Fransa, Almaniya və Böyük Britaniya İrana nota göndərdilər. Notada qeyd edilirdi ki, İranın yenidən uranın işlənməsinə başlaması nüvə proqramı sahəsində aparılan danışıqlara son qoyacaqdır.Lakin İran avqustun 8-də notaya fikir vermədən İsfahanda olan nüvə mərkəzinin möhürünü açaraq yenidən uranın işlənməsinə başladı. Avqustun 9-10-da MAQATE-nin Vyanada keçirilən iclasında qərar çıxarıldı ki, İran 2004-cü ildə əldə olunan Paris razılaşmasının şərtlərini pozur.

Noyabrın 3-də Rusiya İrana təklif edir ki, uranın zənginləşdirilməsini Rusiya ərazisində birlikdə həyata keçirək. İran bununla maraqlandığını bildirsədə, birmənalı cavab vermir.

Beynəlxalq ictimaiyyət İranın uranı zənginləşdirməsinə qarşı çıxsa da, İran hər dəfə bildirirdi ki, hər hansı güzəştə getməyəcək və nüvə proqramını inkişaf etdirmək İranın hüququdur.

2006-cı ilin 23 dekabrında BMT Təhlükəsizlik Şurası İrana qarşı sanksiyaya razılıq verdi və İrana nüvə texnologiyası və materiallarının göndərilməsini qadağan edən qərar çıxardı. İranın Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasının qətnaməsini "qanunsuz" olduğunu elan etdi və nüvə proqramını inkişaf etdirəcəyini bildirdi (8).

2007-ci il ildə İran hərbi paradda özünün istehsalı olan zenit və gəmiəleyhinə raketlərini, idarə olunan torpedalarını, qırıcı təyyarələrini nümayiş etdirdi. İran 1500 km məsafəni vura bilən "Şahab-3" raketlərini də sahibdir. Bundan başqa İran 1800 və 2000 km məsafəni vura bilən "Qədr" və "Aşura" raketlərini də nümayiş etdirmişdi.

Qeyd etmək lazımdır ki, İranın nüvə məsələsi hələ də öz həllini tapmayıb. Demək olar ki, hər il belə bir fikir yayılır ki, ABŞ İrana qarşı hərbi əməliyyatlara başlayacaq. Xüsusən də, ABŞ və müttəfiqləri İraqda hərbi əməliyyatlara başlayandan sonra bu fikirlər daha da dərinləşməyə başladı. Lakin bu cür fikirlər bəyənatlardan uzağa gedə bilmir. İran isə öz növbəsində prezident başda olmaqla hər dəfə bəyan edir ki, İran dinc məqsədlər üçün nüvə proqramının inkişafından imtina etməyəcəkdir. İran dövlətinin dünyadan təcridolunma siyasətini həyata keçirməsi artıq bəllidir. Lakin onun BMT qarşısında götürdüyü öhdəçilik də öz qüvvəsində qalır. Bu öhdəçiliyə görə, İran nüvə silahının nəinki istifadə edilməsi, hətta istehsal edilməsi ilə də məşğul ola bilməz. Lakin heç bir qadağaya məhəl qoymayan İran rəhbərliyi bu sahədə də öz bildiyi kimi siyasət yeritməkdədir. Bir müddət bundan öncə, İranda keçirilən hərbi təlimlər zamanı da qadağan edilmiş nüvə silahları nümayiş etdirildi ki, bunlar da insan həyatı üçün çox böyük təhlükə mənbəyidir. Hərbi paradın keçirilməsindən bir müddət sonra isə, sırf nüvə silahları sayılan “Şahab-1” və “Şahab-2” raketləri, yuxarıda da qeyd etdiyimiz kimi, sınaqdan keçirildi. Bu sınaqların çox böyük müvəffəqiyyətlə həyata keçirildiyi də İran mənbələrində göstərilir. Buna qarşı bir müddət öncə, ABŞ prezidenti Barak Obama özünün sərt mövqeyini bildirərək, bunun yolverilməz olduğunu nəzərə çatdırmışdı. O, hətta İrana öz məqsədlərindən əl çəkmək üçün bəlli bir vaxt müddəti də vermişdi ki, əgər bu müddət ərzində İran dövləti uranın zənginləşdirilməsini dayandırmazsa, ona qarşı sərt sanksiyalar təbiq ediləcəyini də bildirmişdi. Lakin buna heç bir məhəl qoymayan İran rəhbərliyi tezliklə raket sınağını həyata keçirdi və hətta dünyaya da belə bir mesaj verdi ki, heç bir dövlət İrana qarşı çıxa bilməz belə bir hal müşahidə olunarsa, ona qarşı lazımi cavab veriləcəkdir. İranın hərbi gücünün yüksək səviyyəsinin isə buna yardımçı olacağını bildirmişdi. Belə bir vəziyyətdən narahat olan digər dövlət isə İsraildir. İran ilə İsrail arasında məlum narazıçılıq mövcuddur ki, İran da müxtəlif dövrlərdə İsrailə qarşı öz silahlarından istifadə edəcəyini bildirib (9).

## ƏDƏBİYYAT


1. Cabir Məmmədov. Avrasiyanın İslam Dövlətləri. Bakı: Bakı Universiteti, 2000, 345 s.
2. Manuçehr Parsadust. Nəğş-e Sazman-e Mellel dər cəng-e İrağ və İran. Tehran: 1997, 216 s.
3. Rafiq İsmayılov, Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-2000). I kitab. Bakı: Adiloğlu, 2005, 406 s.
4. http://www.kitablar.com
5. http://www.kitablar.org/
6. www. az.wikipedia.org
7. www.ru.wikipedia.org
8. http://www.un.org
9. www.ulkeler.net


## ИРАН В МИРОВОЙ ПОЛИТИКЕ


**Р.И.БАДАЛОВА**


## РЕЗЮМЕ


В период, когда в глобализирующемся мире, где происходит ограничение вооружений угрожающих жизньи людей, проведение такой политики Ираном, несомненно,

вызывает недовольство мирового сообщества. Результаты применения этих вооружений уже известны мировой истории. В результате применения этих вооружений погибли миллионы людей, появились различные массовые заболевания, земли стали непригодными для использования. Проведение такой политики Ираном приведет к таким же последствиям. Возможность использование этих технологий Ираном должна тщательно изучаться. В связи с этим, в скорейшем времени необходимо принять решение о примининии новых санкций в отношении Ирана.

## IRAN IN THE WORLD POLITICS

**R.I.BADALOVA**

**SUMMARY**

To day, in the globalizing world where weapons dangerous for life are prohibited Iran's policy, undoubtedly, raises world discontent. The world history is already aware of the results of the application of these weapons. The application of these weapons resulted in the death of millions of people, the emergence of different mass deseases etc. The possibility of using these technologies by Iran must be precisely investigated. In connection with this, urgent measures must be taken on the implementation of new sanctions regarding Iran.